Bülleten No: 26 / fevral 2015

Elektron Hökumət Portalı

your gateway to all public services

AZƏRBAYCAN RESPUBLİKASI
RABİTƏ VƏ YÜKSƏK
TEXNOLOGİYALAR NAZİRLİYİ

www.e-gov.az

FEVRAL 2015

# Elektron Hökumət Bülleteni



## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



VAXTA QƏNAƏT



ŞƏFFAF



ƏLVERİŞLİ



RAHAT



UKAS ENVIRONMENTAL MANAGEMENT 005

# "Elektron kənd təsərrüfatı" informasiya sistemindən istifadə Qaydaları" təsdiqlənib




**Azərbaycan Nazirlər Kabineti "Elektron kənd təsərrüfatı" informasiya sistemindən istifadə Qaydaları"nı təsdiqləyib.**
Sənəddə yer alan qaydalar üç il müddətində mərhələlərlə yaradılması nəzərdə tutulmuş "Elektron kənd təsərrüfatı" informasiya sisteminin (EKTİS) təşkili, fəaliyyəti və digər dövlət informasiya sistemləri və ehtiyatları ilə inteqrasiyası məsələlərini tənzimləyir.

EKTİS təhlükəsizliyin və məlumatların mühafizəsinin təmin edilməsi, şəffaflığın və hesabatlılığın təmin edilməsi, müraciətlərin elektron formada qəbulunun, istifadəçiyə onun müraciətinin alındığı barədə bildirişin göndərilməsinin və cavablandırılmasının təmin edilməsi, iştirakçıların informasiya sistemləri və ehtiyatları arasında "Elektron hökumət" portalı vasitəsilə məlumat mübadiləsinin və uzlaşmanın təmin edilməsi prinsipləri əsasında fəaliyyət göstərəcək. EKTİS-də Azərbaycan Respublikasının inzibati ərazi vahidlərinin və bələdiyyə torpaqlarının sərhədləri, kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin kəmiyyət, keyfiyyət göstəriciləri, kənd təsərrüfatı yerləri (uqodiyalar) və torpaq istifadəçiliyi barədə məlumatlar, ortofoto planlar, ərazilərin peyk təsvirləri, kənd təsərrüfatı sahəsində dövlət büdcəsinin vəsaiti hesabına yardım alan və dövlət tərəfindən tətbiq olunan güzəştlərdən istifadə edən fiziki və hüquqi şəxslər barədə məlumatlar, fermer təsərrüfatları, onların identifikasiya nömrələri, kənd təsərrüfatı məhsulları istehsalçılarının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi, hüquqi şəxs olduqda tam adı, qanuni istifadəçilərinin soyadı, adı və atasının adı), ünvanı, fəaliyyət istiqamətləri, əlaqə vasitələri barədə məlumatlar, istehsalçı hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs olduqda, onun vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN-i), kənd təsərrüfatı məhsulları istehsalçılarına ayrılan subsidiyaların növləri, məbləği, ödəniş tarixləri, müxtəlif növ kənd təsərrüfatı heyvanlarının identifikasiyası üçün istifadə edilən məlumat və göstəricilər, kənd təsərrüfatı texnikasının, texnoloji avadanlıqların, ehtiyat hissələrin, mineral gübrələrin, pestisidlərin, damazlıq mal-qaranın alınması, onların hüquqi və fiziki şəxslərə satılması və bu zaman həyata keçirilən ödənişlər barədə məlumatlar, kənd təsərrüfatı bitkilərinin və məhsullarının növləri, miqdarı, subsidiyaların verilməsi ilə bağlı ərizələr və s. məlumatlar əks etdiriləcək.

# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təqdim etdiyi elektron xidmətlərdən 2,5 milyon dəfə istifadə olunub

**2014-cü ildə "Elektron hökumət" portalı tərəfindən təqdim edilən elektron xidmətlərdən istifadə statistikasına görə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birinci yeri tutub.**
"Elektron hökumət" portalının istifadəçilərinin 42%-i nazirliyin təklif etdiyi e-xidmətlərdən istifadə edib. Ümumilikdə, ƏƏSMN-nin təqdim etdiyi elektron xidmətlərdən 2,5 mln. dəfə istifadə olunub.

Məlumata əsasən, ötən il Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində informasiya texnologiyalarının tətbiqi işlərinin xeyli genişləndirilməsi, yeni elektron xidmətlərin yaradılması ilə müşayiət edilib. Bu dövrdə əmək müqaviləsi bildirişi üzrə Elektron İnformasiya Sistemi, Tibbi-Sosial Ekspertiza və Əlillərin Reabilitasiyası İnformasiya Sistemi, Mərkəzləşdirilmiş İnformasiya Sistemi yaradılaraq tətbiq olunub.

"Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi", "Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi", "İş yerinə dair arayış", "İşsizlik müavinətinin məbləğinin hesablanması kalkulyatoru", "Sosial müavinətlərin və təqaüdlərin hesablanması üzrə sosial kalkulyator", "Onlayn müraciət" e-xidmətləri hazırlanaraq istifadəyə verilib. Həmçinin nazirliyin 142-"Çağrı mərkəzi"nin informasiya sistemi qurulub, digər qurumların informasiya ehtiyatları ilə inteqrasiyanın və korporativ şəbəkənin təhlükəsizliyinin təmin edilməsi, nazirliyin inzibati binasında lokal şəbəkənin tənzimlənməsi və s. işlər aparılıb.

www.e-gov.az

# www.data.gov.az

## Açıq Hökumət Məlumatları portalı təqdim edildi

***15.01.15 tarixdə Elektron Hökumət Portalının operatoru tərəfindən Açıq Hökumət Məlumatları - www.data.e-gov.az portalının təqdimat mərasimini keçirildi və E-Gov 3.0 mərhələsinə start verildi. Tədbirdə bir çox dövlət qurumlarının və özəl şirkətlərin rəsmiləri iştirak edirdilər. Tədbir Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini cənab Elmir Vəlizadənin çıxışı ilə açıq elan olundu.***

Cənab E.Vəlizadə son illər ərzində ölkəmizdə Elektron Hökumət quruculuğu, elektron xidmətlərin təşkili sahəsində inkişafın nəzərə çarpacaq dərəcədə hiss olunduğunu qeyd etdi. O, bu işdə dövlət qurumları arasında əməkdaşlığı yüksək qiymətləndirdiyini qeyd edərək, ötən illər ərzində "Elektron Hökumət" infrastrukturu, həmçinin, "Elektron Hökumət" portalı üzrə görülmüş işləri diqqətə çatdırdı.

Eyni zamanda, Açıq Hökumət Məlumatlarının beynəlxalq səviyyədə tətbiqindən bəhs edərək, ölkəmizdə də bu istiqamətdə nəzərdə tutulan işlər barədə məlumat verdi.

Daha sonra, portalın nümayəndəsi prezentasiya ilə çıxış edərək "Elektron Hökumət" portalı üzrə əldə olunan nailiyyətlər, bütün sahələr üzrə dinamik şəkildə artan statistik göstəricilər barədə geniş məlumat verdi və bütün dövlət qurumlarına minnətdarlığını bildirdi. Qeyd olundu ki, əldə olunan uğurlar əslində bütün qurumların birgə əməyinin əməli nəticəsidir.

Məruzəçi Açıq Hökumət Məlumatlarının ictimai mahiyyətindən bəhs edərək, Açıq Məlumatların azad şəkildə heç bir məhdudiyyət qoyulmadan istənilən şəxs və ya biznes qurumu tərəfindən istənilən məqsədlə istifadə edilən, şəkli dəyişdirilərək başqa formaya salınan (sxem, xəritə, diaqram və s.) və paylaşılan məlumatlar olduğunu söylədi. İctimai əhəmiyyət daşıyan bu məlumatlardan, heç bir patent, lisenziya, icazə və məhdudiyyət olmadan istifadəçilər istənilən vaxt istənilən formada yararlana bilər. Məlumatlar proqram təminatlarının yaradılmasında istifadə edilə bilən formatda olmalı və əməliyyat sistemləri tərəfindən oxuna bilinməlidir. Açıq Hökumət məlumatları ictimai xarakter daşıyan məlumatların məs, iqtisadi inkişaf statistikası, hava praqnozu, yağmur xəritəsi, seymsmik zonalar xəritəsi, poçt məntəqələri, taksafon aparatları məntəqələri, nəğd ödəniş terminalları, rabitə tarifləri, şəhərlərarası və beynəlxalq kodlar və s. vətəndaşların istifadəsinə verilir. İstənilən vətəndaş, şirkət (proqramist və s.) bu məlumatlardan istifadə edərək ictimai əhəmiyyətli mobil proqramlar yaradıb müsabiqəyə təqdim edə bilər.

*Qeyd olundu ki, Açıq məlumatlar Elektron Hökumət quruculuğunda yeni bir inkişaf mərhələsidir. "www.data.gov.az" portalı vasitəsi ilə vətəndaşlar və biznes strukturları dövlət orqanları tərəfindən yaradılan və açıq elan edilən məlumat bazalarını asanlıqla tapa, fərdi yönümlü xidmətlərin, müxtəlif servislərin hazırlanması üçün istifadə edə biləcəklər.*

**www.data.gov.az** portalının əsas məqsədi məlumatların istifadəsi və onların əsasında veb və mobil əlavələrin yaradılması vasitəsilə cəmiyyətə dövlətin idarə edilməsində



DATA.E-GOV.AZ

ƏSAS SƏHİFƏ | PORTAL HAQQINDA | SERVİSLƏR | PROQRAMLAŞDIRMA | NÜMUNƏ | API YAZILIŞI

DATA.E-GOV.AZ

Açıq məlumatlar Açıq Hökümət təşəbbüsünün bir hisssəsi kimi Azərbaycan Respublikası Elektron Hökümətinin ayrıca bir elementidir. Data.gov.az portalı vasitəsi ilə cəmiyyət dövlət orqanları tərəfindən yaradılan məlumatlar toplusunu asanlıqla tapmaq, yükləmək və istifadə edə bilir. Portal dövlət orqanlarının məlumatlar toplusunun təsviri, o cümlədən məlumatlar toplusuna və əlavə vasitələrə giriş tapmaq üçün informasiyanı özündə əks etdirir. Məlumatlar və məlumatlar toplusunun siyahısı müntəzəm olaraq təkmilləşdiriləcək.

Elektron demokratiya

Data.gov.az portalının müvəffəqiyyəti əhalinin nə dərəcədə portal və məlumatlarla işləməsinə cəlb olunmasından asılıdır. DATA.E-GOV.AZ portalının əsas məqsədi məlumatların istifadəsi və onların əsasında əlavələrin yaradılması vasitəsilə cəmiyyətə dövlət idarə edilməsində iştirak etmək imakanının yaradılması və hərtərəfli təhlil və tədqiqatların aparmasıdır. Data.gov.az portalının təkmilləşdirilməsi işi müntəzəm olaraq aşağıdakı vasitələrin köməyi ilə aparılacaq:
- əks əlaqə;
- istifadəçilərin rəyi və şərhləri
Bizə məlumatlar toplusu ilə bağlı Sizin istəklərinizi, o cümlədən cari məlumatlara qiymət və şərhlərinizi və portalın təkmilləşdirilməsi üçün təkliflərinizi almaq önəmlidir. Biz böyük maraq və səbirsizliklə DATA.E-GOV.AZ portalı haqqında Sizin ideya və sərhlərinizi gözləyirik.

Məqsədlər

1. Açıq dövlət məlumatlarına rahat giriş imkanı
2. Əlavə dəyərin yaradılması -innovativ ideyaların rəğbətləndirməsi
3. Təhlil və tədqiqatların asanlaşdırılması
4. Hökümət işinin şəffaflığı
5. Dövlət orqanlarının effektliyinin və səmərəliliyinin artirılması

FAYDALI KEÇİDLƏR

Şifrənin bərpası
Ən çox verilən suallar
Xidmət təminatçılarının siyahısı
E-Gov qeydiyyat məntəqələri
Normativ-hüquqi sənədlər
Qanunvericilik

Elektron hökümət haqqında ümumi məlumat
Autentifikasiya vasitələri hansılardır?
Dövlət reyestrləri
E-imzanın alınması proseduru sadələşdirildi
Elektron hökumət xidmətlərinin qısa təhlili
A-dan Z-yə e-xidmətlər

Azərbaycan, Bakı
Droqal döngəsi, 702-ci məhəllə

AZƏRBAYCAN RESPUBLİKASI RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRLİYİ

Rabitə və Yüksək Texnologiyalar Nazirliyi
MƏLUMAT HESABLAMA MƏRKƏZİ

iştirak etmək imkanının yaradılmasıdır. Portalın müvəffəqiyyəti əhalinin **və biznes strukturların** nə dərəcədə portal və məlumatlarla işləməsinə cəlb olunmasından asılıdır. Eyni zamanda açıq dövlət məlumatlarına rahat giriş imkanı, əlavə dəyərin yaradılması, innovativ ideyaların rəğbətləndirməsi, təhlil və tədqiqatların asanlaşdırılması, hökümət işinin şəffaflığı və dövlət orqanlarının effektliyinin və səmərəliliyinin artırılması məqsəd kimi qarşıya qoyulmuşdur.

Sonda bütün dövlət və özəl qurumlar elektron hökumət quruculuğunun bu mərhələsində aktiv olmağa dəvət olundular.

Tədbirdə ƏƏSMN-in, DGK-nin rəsmilərinin və müxtəlif özəl şirkətlərin nümayəndələrinin çıxışları səsləndi. Hər bir qurum tərəfindən "Elektron Hökumət" quruculuğu sahəsində görülən işlər barədə məlumat verildi. Eləcə də, E-GOV 3.0 mərhələsi ilə bağlı münasibətlər iştirakçıların diqqətinə çatdırıldı.

QoldenPay (Hesab.az) şirkətinin təsisçisi Fərid İsmayılzadə mövzu ətrafında çıxış edərək, məlumatların, servislərin açıq elan edilməsi artıq bir sıra dünya ölkələri ilə yanaşı transmilli şirkətləri də əhatə edir. Və bu tendensiya rəqabəti şərtləndirməklə inkişafa daha da təkan verir. O əminliklə bildirdi ki, bu təşəbbüsün Azərbaycanda da yaxın illərdə geniş vüsət alacağı faydalı olacaqdır. Natiq təşəbbüsü dəstəklədiyini bildirdi və ondan aktiv yararlanmağa dəvət etdi.

Sonda "data.e-gov.az" portalının təqdimat mərasimi çərçivəsində Açıq Məlumatlar üzrə müsabiqə elan olundu. Müsabiqənin şərtləri barədə də "Elektron Hökumət" portalından və www.data.e-gov.az saytından məlumat əldə etmək olar.

Tədbir yekunlaşdıqdan sonra, tədbir iştirakçılarına "Elektron Hökumət" portalına daxil omaq üçün pin zərflər təqdim edildi.

# Yaxın zamanlarda ünvanlı sosial yardıma müraciət prosesi avtomatlaşdırılacaq

**Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslimov jurnalistlərə açıqlamasına bildirib ki, 1-ci qrup olanlara hər ay 150 manat, 2-ci qrup 130 manat, 3-cü qrup olanlara isə 100 manat Prezident təqaüdü ödənilir.**



Bu onların aldıqları Prezident təqaüdərinə əlavədir: "İl ərzində yoxlanma həyata keçirildi. Ötən ilin dekabr ayında bu müavinəti 143 min insan alırdısa, bu il bu rəqəm 92 minə enib. Çoxlu sayda insanın maşını olduğu halda sosial yardım anlar var idi. Yüklü kredit borcu olanalr alırdı. Ünvanlı sosial yardıma ehtiyacı olmayanlar alırdı, nəticədə onların sayı azaldı, bunun nəticəsində bir ailəyə ödənilən sosial yardımın miqdarı 30 manat artırıldı, bu da təxminən 155 manat olub. Bu proses davam edəcək. Yaxın zamanlarda ünvanlı sosial yardıma müraciət prosesi avtomatlaşdırılacaq. Onlara müraciət edənlərin sosial yardım almaq hüququ avtomatlaşdırılmış qaydada həyata keçiriləcək. Bunun nəticəsində bir ay müddətində sms info vasitəsilə ünvanlı sosial yardımın təyin olunması haqqında və daha sonra miqdarı haqqında məlumat gələcək. Düşünürük ki, bu 3-4 ay müddətində başa gələcək".

# Fonda şikayət edənlər azalıb

**2014-cü ildə Dövlət Sosial Müdafiə Fonduna vətəndaşların şikayət xarakterli müraciətlərinin sayı 35% azalıb.**

Bu barədə Fondun sədri Elman Mehdiyev açıqlamasında bildirib. E.Mehdiyev buna DSMF tərəfindən əhaliyə göstərilən elektron xidmətlərin əhatə dairəsinin genişləndirilməsinin səbəb olduğunu qeyd edib. Ötən il ərzində Fondun 6 yeni elektron xidməti aktivləşdirilərək "Elektron hökumət" portalına inteqrasiya edilib. Ötən il "elektron hökumət portalı" və "elektron ödəniş portalı" xidmətlərindən 1 milyon 380 minə yaxın vətəndaş yararlanıb.

Həmçinin, Dünya Bankının "Doing Business 2015" hesabatına əsasən, Azərbaycan məcburi dövlət sosial sığorta haqlarının ödənişi və hesabat sisteminin avtomatlaşdırılması nəticəsində 32 pillə irəliləyib.

Fond sədri qeyd edib ki, bu cür fəaliyyət gələcəkdə də davam etdiriləcək.

# Filialların onlayn qeydiyyatı "Elektron hökumət"ə inteqrasiya olunub

**Vergilər Nazirliyinin yeni elektron xidmətləri "Elektron hökumət" portalına inteqrasiya olunub. Onlardan biri də "Vergi ödəyicisinin filialının, nümayəndəliyinin onlayn qeydiyyatı" ilə bağlıdır.**

Bu xidmət rezident vergi ödəyicisinin filialının, nümayəndəliyinin elektron qaydada qeydiyyata alınmasını əhatə edir. Elektron xidmət iki iş günü ərzində yerinə yetirilir. Xidmətin göstərilməsi üçün ödəniş tələb olunmur. Onun istifadəçiləri Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin eyniləşdirilmə nömrəsi (VÖEN) almış hüquqi şəxslərdir.

# "Elektron məktəb" layihəsi çərçivəsində elektron jurnallardan istifadə edən məktəblərin sayı 31-ə çatdırılacaq

Bu tədris ilində elektron təhsil texnologiyalarının tətbiqi genişləndiriləcək. İlk növbədə "Elektron məktəb" layihəsi çərçivəsində elektron jurnallardan istifadə edən təhsil müəssisələrinin sayı artırılacaq.

Belə ki, layihə çərçivəsində ümumilikdə 43 məktəb elektron jurnallardan istifadə edir və bunlardan 11-nin kağız jurnal əvəzinə, tam olaraq elektron jurnaldan istifadəyə keçməsi nəzərdə tutulur. Bununla da yalnız elektron jurnallardan istifadə edən məktəblərin sayı 31-ə çatdırılacaq.

Təhsil Nazirliyindən qeyd edilib ki, cari tədris ilində Bakı və digər şəhər və rayonlarda yerləşən 20 təhsil müəssisəsinin fiber-optik rabitə kanalları ilə Azərbaycan Təhsil Şəbəkəsinə və internetə çıxışının təmin edilməsi planlaşdırılır. Rayonlarda yerləşən 200 təhsil müəssisəsinin ADSL rabitə kanalları ilə Azərbaycan Təhsil Şəbəkəsinə və internetə çıxışı təmin olunacaq.

Elektron təhsil texnologiyalarının tətbiqinin genişləndirilməsi üzrə digər işlərə gəlincə, "Labdisc" laboratoriya avadanlıqlarının milli tədris sistemində tətbiq edilməsi, Azərbaycan dilində açıq təlim resurslarının, təhsil müəssisələrində istifadə üçün müxtəlif fənlər üzrə elektron dərsliklərin yaradılması və "Bulud" sistemi üzərindən yayılması, habelə müxtəlif fənlər üçün elektron resursların hazırlanması da vacib məsələlərdəndir.

www.e-gov.az

# Diplomlar haqqında vahid informasiya sistemi hazırlanır – Nazirlikdən açıqlama



***"2012-ci buraxılış ilində ali təhsil ixtisasları üzrə 33 min 891 ədəd, orta ixtisas üzrə isə 15 min 217 ədəd, 2013 - cü ildə isə ali ixtisas üzrə 35min 108 ədəd, orta ixtisas üzrə 11min 753 ədəd diplom haqda məlumatlar elektron hökumət portalında yerləşdirilib".***

Bu barədə Təhsil Nazirliyinin Statistika və Proqnozlaşdırma şöbəsinin müdiri İsmayıl Sadıqov diplomların məlumat bazası ilə bağlı açıqlamasında deyib.

Nazirlik rəsmisi bildirib ki, hazırda ötən ilin buraxılış diplomlarının elektronlaşdırılması istiqamətində işlər aparılır:

"Hazırda əvvəlki illərdə verilmiş diplomlar da daxil olmaqla diplomların vahid elektron bazası hazırlanır. Yaxın vaxtlarda bütün diplomlar elektron formada olacaq".

Şöbə müdiri bu sahədə üzləşdikləri problemləri də diqqətə çatdırıb:

"Diplomların elektron formasına baxmaq üçün axtarış bölməsinə şəxsin adının, soyadının və ata adının baş hərfini, həmçinin diplom işinin nömrəsini qeyd etmək lazımdır. Amma bəzən təhsil müəssisələrindən bizə daxil olan blanklarda texniki yanlışlıqlar olur və bu bu faktları dəqiqləşdirmək vaxtımızı alır. Bu səbəbdən bu istiqamətdə fəaliyyətlərimiz ləngiyir. Belə yanlışlıqlar baş verməsin deyə diplomlar haqqında informasiya sistemi hazırlanır".

**Təhsil Nazirliyi üçün elektron formada diplomların məlumat bazası və diplomların mərkəzləşdirilmiş yoxlama sistemin hazırlanması üzrə işlər davam etdirilir.**

# Direktor müavini olmaq istəyənlər ilk dəfə elektron imtahan verdilər



24-25 yanvar 2015-ci tarixlərində Təhsil Nazirliyi tərəfindən Bakı şəhəri üzrə ümumi təhsil müəssisələrində vakant laborant, təlim-tərbiyə və tərbiyə üzrə direktor müavini (təşkilatçı) vəzifələrinin tutulması məqsədilə müsabiqə keçirilmişdir. Məlumat üçün deyək ki, Azərbaycan təhsil tarixində ilk dəfə olaraq müsabiqə iştirakçıları imtahan.edu.az portalı vasitəsilə onlayn imtahan prosesində iştirak etmişlər.

**İmtahan.edu.az** elektron portalı istifadəçilərə müxtəlif imkanlar verir. Belə ki, Onlayn formada imtahan verən iştirakçılar seçdikləri və ya düzgün hesab etdikləri cavabları dəyişib başqa variantı qeyd edə bilirlər. Cavab kartında yalnız bir variantı qeyd etmək mümkün olduğundan kağız əsaslı imtahanlarda belə imkan yoxdur. Eyni zamanda istifadəçilər, imtahan prosesinin sonunda imtahan nəticələri haqqında (Doğru, səhv və buraxılan sualların sayı) məlumat əldə etmək imkanına malikdirlər.

**İmtahan.edu.az** elektron portalı imtahan iştirakçılarına təqdim olunan suallara yazılı cavab vermək (Esse, inşa) imkanı da verir. İmtahan bitdikdən sonra yazılar qiymətləndirilmək məqsədilə sayta xüsusi giriş əldə etmiş müvafiq mütəxəssislərə təqdim edilir. Qiymətləndirmə prosesində yoxlayan şəxs yazının kimə məxsus olması hqqında məlumata malik olmur. Bu, imtahan prosesinin daha obyektiv və şəffaf keçirilməsini təmin edir.

# Elektron arayışlardan istifadə edən təşkilatların sayı artmaqdadır

Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi banklar və digər təşkilatlarla elektron arayışların verilməsi istiqamətində uğurlu əməkdaşlıqlarını daha da genişləndirirlər. 2015-vi il yanvar ayında daha 5 təşkilat bu layihəyə qoşulmuşdur:

- **Azərbaycan Beynəlxalq Bankı,**
- **BOKT "İnkişaf üçün Maliyyə" MMC**
- **"Bokt Ideal Kredit" MMC**
- **AGBank və**
- **Rabitəbank**

Təşkilatlarla bağlanılan müqaviləyə əsasən, kredit təşkilatı artıq "Elektron Hökumət" portalı üzərindən elektron arayışların verilməsinə start verir.

Hal-hazırda təşkilatların bütün filiallarında vətəndaşlar tərəfindən operativ elektron arayışı əldə etmək üçün zəruri texniki-texnoloji tədbirlər həyata keçirilib. İstifadəçilər istənilən yerdən, o cümlədən filiallarda quraşdırılan xüsusi terminallar (avadanlıqlar) vasitəsilə elektron hökümət portalına daxil olaraq elektron şəkildə iş yerindən və digər arayışları onlayn formalaşdıraraq kredit üçün müraciət edə bilərlər.

Beləliklə elektron arayışlar əsasında istehlak krediti verən təşkilatların sayı 14-ə çatmışdır.

Elektron arayış vətəndaş tərəfindən "Elektron hökümət" portalı vasitəsilə formalaşdırılan elektron sənəddir. Elektron arayış aşağıdakı üstünlüklərə malikdir:

**- İş vaxtına bağlılığın olmaması.** Elektron arayışı sutkanın istənilən vaxtı əldə etmək mümükündür;

**- Vaxta qənaət. Operativlik.** Arayışı əldə etmək üçün bir neçə təşkilata baş vurmağa ehtiyac qalmır. Arayış Portal vasitəsilə asanlıqla formalaşdırılır və lazımi ünvana elektron şəkildə göndərilir;

**- Şəffaflıq.** Vətəndaş məmur münasibətlərinin minimuma endirilməsi;

**- Məlumatların dəqiqliyi.** Arayış dövlət informasiya ehtiyatlarının məlumatları əsasında formalaşır;

Hal-hazırda, portalın operatoru növbəti mərhələ kimi elektron arayışlardan istifadə sahələrinin genişləndirilməsi və müxtəlif istiqamətlər (ehtiyaclar) üzrə elektron arayışların verilməsi üçün işləri davam etdirir.

# Banklar tərəfindən elektron arayışların tətbiqi genişlənir və elektron arayışlardan istifadə sayı kütləvi şəkildə artmaqdadır

"Elektron Hökumət" portalının təqdim etdiyi sosial xidmətlərdən "Vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayışın verilməsi", "Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi" və "İş yerinə dair arayış" vətəndaşların ən çox diqqətini çəkən elektron xidmətlərdəndir.

"Vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayışın verilməsi" elektron xidmətindən hazırda "Bank of Baku", "Unibank" ASC, "Accessbank", "Bakı Ticarət Bankı", "Muganbank" ASC, "Bank Respublika" ASC, AGBank ASC, Rabitəbank ASC və "Azərbaycan Beynəlxalq Bankı" ASC faydalanmaqdadır.

"Vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayışın verilməsi" xidməti vətəndaşlardan ən çox tələb olunan arayışların asanlıqla elektron şəkildə əldə edilməsi məqsədi ilə yaradılmışdır. Banklara müraciət edən zaman vətəndaş bu xidmətdən istifadə edərək banka getmədən onlayn rejimdə portala daxil olub, kredit almaq və digər məsələlər üçün özünə aid fərdi məlumatlar üzrə elektron arayışı banka təqdim etmək imkanını əldə edir.

2014-cü ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən portal üzərindən vətəndaşların istifadəsinə verilmiş "Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi" e-xidmətlər sosial yönümlü xidmətlər sırasındadır və ən çox istifadə olunan xidmətlərdəndir. Həmçinin, sözügedən Nazirlik tərəfindən yenicə vətəndaşların istifadəsinə təqdim olunmuş "İş yerindən arayış" aktuallığı ilə seçilən e-xidmətlərdəndir. Bu e-arayışın təqdim olunması vətəndaşlardan tez-tez tələb olunan və kağız üzərində olan sənədlərin daha birini ləğv etmək imkanı verdi.

"Elektron Hökumət" portalının təqdim etdiyi statistikaya əsasən 2014-cü ilin sentyabr-dekabr ayları ərzində vətəndaşlar "Vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayışın verilməsi", "Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi" və "İş yerinə dair arayış" e-xidmətlərindən 275937 dəfə istifadə ediblər.



Banklar tərəfindən kreditlərin verilməsi üçün istifadə edilən e-arayışların sayı 2014-cü ilin dekabr ayı ərzində 25612 olmuşdur ki, bu da noyabr ayına nisbətən 10317 ədəd (67%) çoxdur. Aşağıdakı diaqramda istehlak kreditlərinin verilməsi üçün verilmiş e-arayışlardan istifadə sayının artım dinamikası aydın görünür:




**şək 1.** İstehlak kreditlərinin verilməsi üçün banklar tərəfindən istifadə edilmiş e-arayışların sayı

www.e-gov.az

Aşağıda isə 2014-cü ilin sentyabr-dekabr ayları ərzində istehlak kreditlərinin verilməsi üçün e-arayışlardan istifadə sayı Banklar üzrə əks olunmuşdur:




**şək 2.** 2014-cü ilin sentyabr-dekabr ayları ərzində istehlak kreditlərinin verilməsi üçün e-arayışlardan istifadə sayının Banklar üzrə kütlə faiz nisbəti.

Qeyd edək ki, elektron arayış xidmətindən istifadə edərək vətəndaşlar aşağıdakı bir sıra üstünlükləri əldə etmiş olurlar:

Sutkanın 24 saatı, günün istənilən vaxtı arayış əldə etmə imkanı;

- Vətəndaşlar üçün vaxt itkisini aradan qaldırılması və rahatlığın təmin edilməsi;
- Bürokratik proseslərin və rüşvət hallarının aradan qaldırılması və s.

Gündəlik həyatda ən çox istifadə olunan sənədlərdən olan arayışların elektron şəkildə vətəndaşlara təqdimi bu məsələni sosial qayğılar siyahısından çıxararaq, vətəndaşlar üçün daha əlverişli və daha əl çatan etməkdədir.

Bildirmək istəyirik ki, belə arayışların sayı artmaqdadır və güman edirik, cari ildə "Elektron hökumət" portalı vasitəsilə aşağıdakı arayışların da elektron şəkildə əldə edilməsi mümkün olacaqdır:

**Yaşayış yeri barədə elektron arayışın verilməsi**

- Diplom barədə elektron arayışın verilməsi
- Rabitə xidmət borcları olmaması barədə elektron arayışın verilməsi
- Kommunal xidmət borcları olmaması barədə elektron arayışın verilməsi
- Abituriyentin ali məktəbə daxil olması barədə elektron arayışın verilməsi
- İş yeri və əmək haqqı barədə elektron arayışın verilməsi
- Sağlamlıq barədə tibbi elektron arayışın verilməsi
- Pensiya kapitalı barədə elektron arayışın verilməsi
- Portal vasitəsilə bəzi etibarnamələrin verilməsi
- Şəxsiyyət vəsiqəsinin elektron surəti
- Daşınmaz əmlak barədə Reyestrdən çıxarışın elektron surəti
- Vətəndaşın adına olan avtonəqliyyat vasitəsi barədə elektron arayışın verilməsi

Məlum olduğu kimi, bu xidmətlər müxtəlif qurumlar tərəfindən vətəndaşlardan ən çox tələb olunan arayışlardır və bu arayışların elektron formada təqdim edilməsi vaxta qənaətlə yanaşı neqativ halların və süründürməçiliyin qarşısını almış olacaq.

# Səhiyyə Nazirliyi yeni elektron xidmətin tətbiqinə hazırlaşır

**Səhiyyə Nazirliyi (SN) yeni elektron xidmətin tətbiqinə hazırlaşır. "Həkim axtarışı" adlanan bu elektron xidmət "Tibbi kadrların vahid registrindən məlumatların əldə edilməsi" xidmətinin daha genişləndirilmiş versiyasıdır. Səhiyyə Nazirliyinin (SN) Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi tərəfindən hazırlanan bu xidmətin gələcəkdə daha da təkmilləşdirilməsi planlaşdırılır.**

Eyni zamanda Səhiyyə Nazirliyi səhiyyə sahəsində elektron xidmətlərin sayını artırmaq niyyətindədir.

Belə ki, SN tərəfindən göstərilməsi nəzərdə tutulan bir sıra yeni elektron xidmətlər hələlik hazırlıq mərhələsindədir.

Bu mərhələdə olan elektron xidmətlərə "Ambulator tibb müəssisələrindən evə çağırış və ya həkim qəbuluna e-qeydiyyat", "Tibbi arayışların elektron registrindən məlumatların verilməsi", "Ölüm haqqında tibbi şəhadətnamə", "Elektron registrindən məlumatların verilməsi", "Özəl tibb müəssisəsində narkotik və psixotrop maddələrin istifadəsinə razılıq məktubunun verilməsi", "Dərman vasitələrinin idxalına icazə verilməsi üçün müraciətin və sənədlərin qəbulu", "Prekursorların idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı



ilə məşğul olmağa xüsusi razılığın verilməsi (lisenziya) üçün müraciətin və sənədlərin qəbulu", "Xarici ölkələrdə tibbi təhsil və ya fəaliyyət göstərilməsi üçün müvafiq arayışın verilməsi məqsədi ilə müraciətin və sənədlərin qəbulu", "Respublikadan kənarda müalicə alınması ilə əlaqədar müraciətin və sənədlərin qəbulu" daxildir.

## 2015-ci il üçün təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq Elektron Hökumət Portalının operatoru "Elektron Hökumət" üzrə maarifləndirici təlimlərə başlayır

"Elektron Hökumət" portalı yarandığı gündən bu günə qədər bir neçə inkişaf mərhələsindən keçmişdir. "Elektron Hökumət" layihəsinin inkişafı istiqamətində portalın öhdəliyində duran vəzifələr yalnız sosial xidmətlərin elektronlaşdırılaraq "bir pəncərə" prinsipi əsasında təqdim edilməsindən ibarət deyil. Portala aid digər mühüm məsələ "Elektron Hökumət", e-xidmətlər, e-imza, e-sənəd mübadiləsi barədə vətəndaşları maarifləndirmək, bunun üçün vətəndaşlarla birbaşa ünsiyyətdə olan qurumları ətraflı məlumatlandırmaq, onları bu istiqamətdə əməkdaşlığa təşviq etməkdir. "Elektron Hökumət" portalı maarifləndirmə xarakterli tədbirləri təşkil edərkən bütün yaş dövrlərindən olan vətəndaşlara, xüsusən gənclərə və tələbələrə üstünlük verir.

Artıq yeni ilin ilk ayından etibarən Tədbirlər Planına uyğun olaraq "Elektron Hökumət" portalı bir sıra təhsil müəssisələri ilə əməkdaşlıq edərək, maarifləndirici seminarların təşkilinə start vermişdir. "Kitab yoxsa komputer?", "Virtual yoxsa real məmur?", "Ənənəvi yoxsa elektron hökumət?" və s. mövzular çərçivəsində planlaşdırılan tədbirlər tezlikə **"Dünya Məktəbi"** və **"Bakı Avropa liseyi"**ndə baş tutacaqdır.

"Elektron Hökumət" quruculuğu, e-xidmətlər, e-imza üzrə keçirilən bu maarifləndirici-təşviqedici seminarların əsas məqsədi dövlət-vətəndaş münasibətlərində innovasiya hesab edilən, bürokratik ənənəvi əməliyyatlara son qoyan elektronlaşmanın ictimai mahiyyətini, əhəmiyyətini və gələcək planları vətəndaşlarımıza çatdırmaq, idarəetmədə yenilik olan rəqəmsallaşmanın son nəticədə ictimai rifahın yaxşılaşmasına xidmət etməsini izah etməkdir.

"Elektron Hökumət" portalının operatoru bütün dövlət və qeyri-dövlət qurumlarının rəhbər şəxslərini "Elektron Hökumət" portalının, e-xidmətlərin, e-imzanın təbliğatı baxımından aktiv olmağa səsləyir.

## Azərbaycan Dillər Universitetində "Elektron hökumət və gənclər" mövzusunda dəyirmi masa keçirildi

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Gənclərin problemləri üzrə Elmi Araşdırmalar Mərkəzinin təşəbbüsü ilə 30.01.2015-ci il tarixdə Azərbaycan Dillər Universitetində "Elektron hökumət və gənclər" mövzusunda dəyirmi masa keçirildi. Tədbirdə Azərbaycan Dillər Universitetinin, RYTN-nin, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, Gənclər və İdman Nazirliyinin, Təhsil Nazirliyinin, Ombudsmanın rəsmiləri və tələbələr iştirak edirdilər.

Tədbirdə ilk çıxış üçün söz Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzinin şöbə müdiri İ.Abdullayevə verildi. O, "Elektron hökumət və gənclər" mövsusunda çıxış edərək, son illər ərzində ölkəmizdə Elektron Hökumət quruculuğu, elektron xidmətlərin təşkili və göstərilməsi sahəsində mühüm nəticələr əldə olunduğunu və bu inkişafın beynəlxalq miqyasda da nəzərə çarpacaq dərəcədə hiss olunduğunu söylədi. Hazırda "Elektron hökumət" portalına **45** dövlət qurumu üzrə **405** e-xidmətin inteqrasiyası təmin edilmişdir. Portalda olan e-xidmətlərin çeşidinin və keyfiyyətinin yüksəlməsi və aparılan maarifləndirmə-təbliğat xarakterli tədbirlərin nəticəsində təkcə 2014-cü il ərzində elektron xidmətlərdən istifadə edən istifadəçilərin sayında **~50** dəfə artım müşahidə olunmuşdur. Əgər 2013-cü ilin yanvarında **23,115** nəfər elekron xidmətlərdən yararlanmışdısa, 2015-ci ilin yanvarında bu rəqəm **1,137,975** nəfər olmuşdur. Vətəndaşlar tərəfindən elektron xidmətlərə müraciət sayında **856** dəfə artım müşahidə olunmuşdur. Belə ki, elektron xidmətlərə müraciət sayı 2013-cü ilin yanvarında **7,957** olmuşdursa, 2014-cü ilin sonuna bu rəqəm **6,812,582** nəfər olmuşdur.

Məruzəçi qeyd etdi ki, Məlumat Hesablama Mərkəzi tərəfindən vətəndaşlara daha çox lazım olan sosialyönümlü xidmətlərin elektronlaşmasına xüsusi diqqət verilir. Məlum olduğu kimi, vətəndaşlar gündəlik həyatda sənədləşdirmə işləri üçün dövlət qurumlarından müxtəlif arayışların alınmasına günlərlə vaxt sərf edirlər. Bunu nəzərə alaraq "Elektron hökumət" portalı vasitəsilə elektron arayışların alınması istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Yalnız



2014-cü ilin dekabr ayı ərzində vətəndaşlarımız tərəfindən 40 minə yaxın elektron arayış formalaşdırılmışdır. Vətəndaşlardan daxil olan sorğular nəzərə alınaraq, tezliklə elektron arayışların sırasına bir sıra digər e-arayışlar da əlavə olunacaqdır.

Məruzəçi bildirdi ki, portal üzərindən təqdim olunan bir çox real elektron xidmətlər məhz gənclər üçün nəzərdə tutulmuşdur. Təhsil Nazirliyi və Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən təqdim olunan xidmətlərin statistikası sosial xidmətlərin rəqəmsallaşması prosesində gənclərin aktiv rolunu bir daha təsdiqləyir. Məlumat Hesablama Mərkəzi çalışır ki, gənclər Elektron Hökumət quruculuğunda fəal olsunlar və elektronlaşma prosesinin iştirakçısına çevrilsinlər. Vurğulandı ki, portalının operatoru olaraq Məlumat Hesablama Mərkəzi mütəmadi olaraq "Elektron Hökumət" quruculuğu istiqamətində maarifləndirici və təbliğat xarakterli tədbirlər təşkil edir. Cari ildə də bir çox ali məktəblərdə və kolleclərdə analoji təlimlərin keçirilməsi planlaşdırılır. Bu tədbirlərin keçirilməsində məqsəd gənclərə "Elektron Hökumət", elektron xidmətlər, elektron sənəd mübadiləsinin əhəmiyyəti barədə ətraflı məlumat vermək, elektronlaşmanın mahiyyətini və perespektivlərini izah etməkdir.

www.e-gov.az

# Elektron Hökumət quruculuğunda Vergilər Nazirliyinin rolu

*Vergilər Nazirliyinin yaradılmasının 15 illik yubileyi ilə əlaqədar 22.01.2015-ci il tarixdə BMM-də "Vergilər" qəzeti "Azərbaycan vergi sistemi: 15 ilin uğurları və yeni çağırışın astanasında" mövzusunda dəyirmi masa keçirdi.*

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

Tədbirdə millət vəkilləri və bir çox dövlət qurumlarının rəsmiləri iştirak edirdilər. Vergilər Nazirinin müşaviri Akif Musayev öz çıxışı ilə tədbiri açıq elan etdi. O, Vergilər Nazirliyinin yaradılmasından keçən 15 il ərzində vergi strukturlarında aparılan islahatlar, görülən işlər, əldə edilən uğurlar barədə tədbir iştirakçılarına geniş məlumat verdi. A.Musayev ölkədə həyata keçirilən uğurlu vergi siyasətinin biznes mühitinə eləcə də, qeyri-neft sektorunun inkişafına müsbət təsirindən bəhs etdi. O qeyd etdi ki, ölkədə həyata keçirilən uğurlu vergi siyasəti sayəsində vergi ödəyicilərinin sayı dəfələrlə artsa da, vergi orqanları əməkdaşlarının sayı dəyişilməz qalmışdır.

Tədbirdə Rabitə və RYTN MHM-nin əməkdaşı çıxış edərək, son illər ərzində ölkəmizdə Elektron Hökumət quruculuğu, elektron xidmətlərin təşkili və göstərilməsi sahəsində mühüm nəticələr əldə olunduğunu və bu inkişafın beynəlxalq miqyasda da nəzərə çarpacaq dərəcədə hiss olunduğunu söylədi. O, 2012-ci ilin aprel ayında "Elektron Hökumət" portalının istifadəyə verildiyi dövrdə portala cəmi 16 dövlət qurumunun qoşulduğunu və qoşulan ilk qurumlardan birinin məhz Vergilər Nazirliyi olduğunu bildirdi. Hazırda, portalda Vergilər Nazirliyi üzrə 59 e-xidmət yerləşdirilərək vətəndaşların, fiziki və hüquqi şəxslərin istifadəsinə verilmişdir. Məlum olduğu kimi dövlət qurumlarının öz məlumatlarını portala inteqrasiya etmələri və portal üzərindən informasiya mübadiləsinin aparılması e-xidmətlərin təşkilində və keyfiyyətinin artırılmasında mühüm şərtdir. Vergilər Nazirliyinin bu istiqamətdə də aktiv olduğu və onların hazırladığı bir veb-servisin portal üzərindən Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliyinə ötürüldüyü barədə məlumat verildi. Vergilər Nazirliyi tərəfindən ASAN imzanın verilməsinin e-imzanın tətbiqinin genişlənməsində, elektron sənəd dövriyyəsinin inkişafında mühüm rol oynadığı qeyd olundu..

Tədbir digər iştirakçıların çıxışları ilə davam etdi.

# "Elektron İpoteka Portalı" fəaliyyətə başlamışdır

Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu ölkədə ipoteka kreditləşməsi mexanizminin beynəlxalq standartlara uyğun inkişaf etdirilməsi, əhaliyə xidmət səviyyəsinin yüksəldilməsi və istehlakçıların hüquqlarının qorunması məqsədilə informasiya texnologiyalarının geniş tətbiqinin reallaşdırılması üçün ardıcıl olaraq müvafiq tədbirlər həyata keçirir.

Qeyd edək ki, Azərbaycan İpoteka Fondu "Elektron İpoteka Sistemi"nin (EİS) tətbiqini uğurla başa catdırmış və sistem ipoteka bazar iştirakçılarının istifadəsinə verilmişdir. Sistemin tətbiqi ipoteka bazar iştirakçılarına - Müvəkkil Kredit Təşkilatlarına (MKT), Sığorta və Qiymətləndirici şirkətlərə bütün texniki prosedurları real vaxt rejimində (onlayn), həyata keçirilməsinə imkan verir. Bu da öz növbəsində, kreditləşmə prosesinin sürətlənməsini və sistemin səmərəli fəaliyyətini təmin edir.

Bununla yanaşı, 02 fevral 2015-ci il tarixdən etibarən EİS sisteminin davamı olan "Elektron İpoteka Portalı" real vaxt rejimində əhalinin tam istifadəsinə verilmişdir. Belə ki, bundan sonra ipoteka kreditindən yararlanmaq istəyən hər bir şəxs birbaşa olaraq internet vasitəsi ilə real vaxt rejimində (onlayn) portalın veb səhifəsinə www.e-ipoteka.az daxil olub müvafiq qaydada ipoteka kreditinin alınması üçün müraciət etməlidir. Müraciət etmək üçün ilkin mərhələdə qeydiyyatdan keçərkən, hər bir şəxs özünə dair bütün zəruri məlumatları daxil edərək, ümumilikdə qiymətləndirilir. Eyni zamanda ipoteka kreditindən yararlanmaq istəyən hər bir şəxs müvəkkil kredit təşkilatlarının ipoteka kreditləri üzrə təklif etdiyi şərtlərə




diqqət yetirməli, onları təhlil etdikdən sonra, yekun olaraq müraciətini təsdiqləməlidir.

İpoteka kreditləri üzrə müraciətlərin real vaxt rejimində (onlayn), aparılması ipoteka kreditindən yararlanmaq istəyən hər bir şəxsə geniş imkanlar yaratmaqla yanaşı, əhalinin rahatlığının təmin olunmasına, vaxt itkisinin qarşısının alınmasına, ipoteka kreditləşməsi sahəsində şəffaflığın daha da artırılmasına və eləcə də Fondun nəzarət mexanizminin gücləndirilməsinə xidmət edəcəkdir.

# Əmlak Məsələləri Dövlət Komitəsinin yeni elektron xidmətləri portala inteqrasiya edildi

Əmlak Məsələləri Dövlət Komitəsi (ƏMDK) ilə Məlumat Hesablama Mərkəzi tərəfindən aparılan birgə işlər sayəsində ƏMDK-nın daha 2 elektron xidməti "Elektron hökumət" portalına inteqrasiya olundu və portal üzərindən ƏMDK-nın göstərdiyi elektron xidmətlərin sayı 31-ə çatdı:

- ***İxtisaslaşdırılmış pul hərracı***
- ***Kiçik dövlət müəssisələrinin (obyektlərinin) əmək kollektivi üzvlərinə güzəştli satışı***

"İxtisaslaşdırılmış pul hərracı" e-xidməti vasitəsilə özəlləşdirilən obyektlərin səhmlərinin, eləcə də dövlət müəssisəsi və obyektlərinin, avtonəqliyyat vasitələrinin, yarımçıq tikili və qeyri-yaşayış sahələrinin özəlləşdirilməsi üzrə keçirilən hərracların daha sivil qaydada, elektron şəkildə həyata keçirilməsi mümkün olacaq.

"Kiçik dövlət müəssisələrinin (obyektlərinin) əmək kollektivi üzvlərinə güzəştli satışı" e-xidməti vasitəsilə özəlləşdirmə prosesində kiçik dövlət müəssisə və obyektlərinin və dövlət müəssisələrinin bazasında yaradılmış səhmdar cəmiyyətlərin səhmlərinin əmək kollektivinə və onlara bərabər tutulan şəxslərə güzəştli satışı reallaşdırılacaq.

Beləliklə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə ƏMDK üzrə təsdiq edilən 27 elektron xidmətin 26-sı portala inteqrasiya edildi.

# Startup Azərbaycan fevralın 1-dən başlayacaq

**Startup Azərbaycan Təşkilat Komitəsindən verilən məlumata görə, "Startup Azərbaycan 2015" layihəsinə fevralın 1-dən start verilir.**

I Avropa Oyunlarının iyun ayında keçiriləcəyini nəzərə alaraq ənənəvi "Startup Azərbaycan 2015" təqdimat mərasiminin və milli konfransının da may ayının sonunda keçirilməsi planlaşdırılır.

Layihə çərçivəsində milli startapların müsabiqəsinin, startapçılar üçün təlimlərin, universitetlərdə Startap görüşlərinin, Startup Günlərinin, investorlarla görüşlərin keçirilməsi nəzərdə tutulur.

*Cari ildə xüsusi nominasiyalar üzrə startaplar da müsabiqəyə qəbul ediləcək. Belə ki, SİNAM şirkətinin məhsulu olan GoMAP layihəsi və Elektron Hökumət Portalı tərəfindən təqdim edilən açıq servislərdən, Açıq Hökumət Məlumatlarından istifadə olunmaqla hazırlanacaq mobil tətbiqlər də müsabiqəyə qəbul ediləcək və onlar xüsusi mükafatlar qazanacaqlar.*

"Startup Azərbaycan 2015" çərçivəsində keçirilən müsabiqənin fevralın 1-dən başlayacağı bildirilir.

Hazırda "Startup Azərbaycan 2015" layihəsinə hazırlıq işlərinin davam etdiyi bildirilir.

*Startup Azərbaycan layihəsinin əsas məqsədi milli startupların üzə çıxarılması və inkişafına dəstək vermək, bu istiqamətdə maarifçilik işləri həyata keçirmək, ölkədə İnternet biznes mühitini yaxşılaşdırmaq və investorların bu sahəyə diqqətini artırmaq və innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə yardım etməkdir.*

# Elektron Hökumət Portalının operatoru "Bax, istifadə et və yarat!" adlı mobil əlavələrin hazırlanması müsabiqəsi elan edir

Elektron Hökumət Portalının operatoru – Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi **Startup Azərbaycan 2015 layihəsi çərçivəsində** data.gov.az portalının Açıq Məlumatlarından istifadə etməklə "Bax, istifadə et və yarat" adlı mobil əlavələrin hazırlanması müsabiqəsini elan edir.

İKT mütəxəssisləri, **startupçılar,** tələbələr və s. üçün nəzərdə tutulan və cari ilin 1 fevral tarixindən başlanacaq müsabiqəyə qatılmaq üçün Açıq Məlumatlardan istifadə edərək ictimai əhəmiyyətli mobil proqramlar yaradıb müsabiqəyə təqdim etmək lazımdır. Bu müsabiqə hər il keçirilən ümumi **Startup Azərbaycan 2015** layihəsi çərçivəsində **"E-gov mobil tətbiqlər"** istiqaməti üzrə həyata keçirilir.

Açıq Məlumat azad şəkildə heç bir məhdudiyyət qoyulmadan, istənilən şəxs tərəfindən istənilən məqsədlə istifadə edilən, şəkli dəyişdirilərək başqa formaya salınan (sxem, xəritə, diaqram və s.) və paylaşılan məlumatlardır. İctimai əhəmiyyət daşıyan bu məlumatlardan, heç bir patent, lisenziya, icazə və məhdudiyyət olmadan, istifadəçilər istənilən vaxt istənilən formada yararlana bilər. Məlumatlar proqram təminatlarının yaradılmasında istifadə edilə bilən formatda olmalı və əməliyyat sistemləri tərəfindən oxuna bilinməlidir. Açıq Hökumət məlumatları ictimai xarakter daşıyan məlumatların məsələn; iqtisadi inkişaf statistikası, hava proqnozu, yağmur xəritəsi, seymsmik zonalar xəritəsi, poçt məntəqələri, taksafon aparatları məntəqələri, nəğd ödəniş terminalları, rabitə tarifləri, şəhərlərarası və beynəlxalq kodlar və s. vətəndaşların istifadəsinə verilir. İstənilən vətəndaş (proqramist və s.) bu məlumatlardan istifadə edərək ictimai əhəmiyyətli mobil proqramlar yaradıb müsabiqəyə təqdim edə bilər.

**Müsabiqənin tələbləri:**
Müsabiqəyə təqdim ediləcək mobil əlavələrin hazırlanması üçün www.data.gov.az portalına daxil olmaqla açıq məlumatlar siyahısından istifadə etmək mütləqdir.
Startup Azərbaycan 2015 çərçivəsində keçirilən müsabiqəyə 01 fevral tarixdən start veriləcək.
**"E-gov mobil tətbiqlər"** nominasiyası üzrə müsabiqənin mükafat fondu:
**1**-ci yer - **2000** manat
**2**-ci yer - **1000** manat
**3**-cü yer **500** manat
Müsabiqənin nəticələri üzrə təqdimat mərasiminin may ayının sonunda keçirilməsi planlaşdırılır.

www.e-gov.az

# Xarici ölkələrin təcrübəsindən - İrlandiya təcrübəsi

Yaşadığımız əsr informasiya əsridir və hər gün ~2.5 kvintilyon bayt informasiya yaradılır. Son iki ildə yaradılan məlumatların sayı demək olar ki, ötən illərlə müqayisədə iki dəfə çoxalıb. Çox sayda informasiya yaratmaq dövlət orqanlarının, fiziki şəxslərin və özəl təşkilatların gündəlik işinin tərkib hissəsinə çevrilib. Lakin bu informasiyalardan səmərəli istifadəni təmin edə bilirikmi?

Açıq Məlumatlar, istənilən vaxt istənilən kəs tərəfindən istifadə və təkrar istifadə edilə biləcək, bölüşə bilinəcək məlumatlardır. Açıq Məlumatların tərkibinə şəxslərə aid fərdi və həssas məlumatlar istisna olmaqla, bütün ictimai məlumatlar daxildir. Açıq Hökumət Məlumatları kommersiya və ya qeyri-kommersiya məqsədləri üçün açıq edilir.

**Məlumatların cəmiyyətə açıq edilməsinin üstünlükləri aşağıdakılardır:**

**- İnkişaf etdirilmiş sosial xidmətlər** - ictimai təşkilatlar özləri də Açıq Məlumatlardan yararlanan əsas istifadəçilərdəndirlər. İnformasiyanın açıq edilməsi özü infromasiyanın keyfiyyətini inkişaf etdirməyə kömək edir və qurumlar da vətəndaşlara öz işinin nəticəsi kimi yüksək göstəricilər əks etdirən informasiyalar təqdim etmək marağında olacaqlar.

**- İnnovasiya** - tədqiqatçılar, tərtibatçılar və sahibkarlar informasiyaları təhlil edir və bu informasiyaları yeni üsulla təkrar istifadə edir.

**- İqtisadi inkişaf və iş yaratma** - mövcud informasiyalardan kommersiya məqsədli mobil proqramlar hazırlanır.

**- Artan şəffaflıq və hesabatlılıq** - bu, hökumət və cəmiyyət arasındakı inamı gücləndirir.

**- Vətəndaş iştirakının artırılması** - informasiyalar və onların istifadəsi ətrafında müzakirələrdə və mobil proqramların istifadəsində vətəndaş iştirakı artacaq.

Açıq məlumatlar üzrə dünya təcrübəsini, fərqli ölkələrin istifadə praktikasını öyrənmək, bu praktikadan ölkəmizdə elektron höumət quruculuğunda istifadə etmək üçün elektron hökumət portalının xəbərlər bölməsində - "xarici ölkələrin təcrübəsindən" adlı analitik məqalələrin hazırlanmasına başlayırıq.

Beynəlxalq təcrübəyə nəzər salsaq görərik ki, ictimai xarakterli məlumatların açıq edilməsi dövlət qurumlarının üzərlərinə götürdükləri öhdəliklərin tərkib hissəsidir. Açıq edilmiş belə məlumatlardan ictimai əhəmiyyətli mobil proqramların yaradılmasında "xammal" kimi istifadə olunur. Xammal şəklində olan məlumatlar adətən, toplanılır və informasiya bazası şəklində saxlanılır. Bu informasiyaların növündən asılı olaraq təhlillər aparıla, hesabatlar, veb-vasitələr (servislər) hazırlana bilər. Hökumət Məlumatlarının cəmiyyətə açıq edilməsində əsas məqsəd xammal şəklində olan informasiyaların yayımlanmasını təmin edərək, sosial-iqtisadi mənfəət gətirəcək mobil proqramların hazırlanmasına dəstək olmaqdır.

Buna üçün ilkin olaraq İrlandiya təcrübəsinə müraciət edirik. İrlandiya təcrübəsi ilə maraqlandıqda aydın olur ki, İrlandiyada açıq məlumatlardan geniş istifadə olunur və cəmiyyət üçün faydalı olan mobil proqramlar hazırlanır. Məsələn, İrlandiyada çimərlik üçün nəzərdə tutulmuş məkanlarda suyun keyfiyyəti barədə məlumatların təkrar istifadəsinə nəzər salaq. Hər il yerli orqanlar üzmək üçün müəyyən olunmuş məkanlarda suyun keyfiyyətinin yoxlanılması məqsədilə müxtəlif monitorinqlər keçirir və aşkar etdikləri faktları Ətraf Mühitin Qorunması Təşkilatına bildirilirlər. Ətraf Mühitin Qorunması Təşkilatı bu informasiyaları toplayır və çimərlik üçün nəzərdə tutulmuş məkanları "zəif", "qənaətbəxş", "yaxşı" və "əla" kimi təsnifatlandıraraq müvafiq hesabatlar hazırlayır. Bu hesabatlar ölkədə çimərlik üçün nəzərdə tutulan məkanların qiymətləndirilməsinə imkan yaradır. Eyni zamanda açıq, oxuna bilən formatda yayımlanan məlumatlar çimərliklər barədə tam təsəvvür yaradan statistik diaqramların, cədvəllərin və ya xəritələrin hazırlanmasına imkan verir. Müxtəlif strukturlar tərəfindən hazırlanb yayımlanan bu cür hesabatlardan sakinlər, qonaqlar, turizm şirkətləri və s. istifadə edirlər. Son nəticədə bu proses çimərlik məkanları arasında rəqabətə və keyfiyyətin artmasına gətirib çıxarır.

İrlandiya Açıq Hökumət Məlumatları üçün ilk veb səhifə "Fingal Open Data" (http://data.fingal.ie/) adlanır. Bu səhifədə 90-dan artıq açıq hökumət məlumatları yayınlanmışdır. Məlumat bazaları əsasən CSV, XML, KML formatlarında açıq edilib. Bu məlumat bazaları 12 qrupda birləşdirilib. Səhifədə, həmçinin, hazırlanmış bir neçə mobil application nümunəsi yerləşdirilmişdir. Nümunə üçün, "Dublin Parking"- bu mobil application hazırlanmasında phonegap istifadə olunub və naviqator kimi istifadə edilir."Discover Fingal" - bu mobil applicationdan İrlandiyanın bütün turizm/mədəniyyət yerləri, turlar, turizmlə bağlı tədbirlər, aksiyaları görmək mümkündür, həmçinin, bu proqramın naviqator funksiyası var. Bundan əlavə, əyləncəli funksiyaya malik bu proqram turistlərə oyun oynayaraq turizm məkanlarına hədiyyə çeki qazanmaq imkanı verir. "Street Trees" - bu proqram məkanları eləcə də, küçələrin qrafiki təsvirini görmək üçün nəzərdə tutulub. "Traffic Camera"- bu proqram yol kameralarının interaktiv xəritəsidir.

Ötən il İrlandiyada Açıq Hökumət Məlumatları üçün daha bir portal (**www.data.gov.ie**) istifadəyə verilmişdir. **www.data.gov.ie** portalında Dəniz İnstitutunun, Mərkəzi Statistika İdarəsinin, Kommunikasiya, Enerji, Təbii Ehtiyatlar Departamenti və s. idarələr tərəfindən açıq edilmiş məlumatlar yerləşdirilmişdir. Hazırda, bu portalda 50-ə yaxın dövlət və özəl orqanın təqdim etdiyi 508 məlumat bazası mövcuddur. Bunlara misal olaraq aşağıdakıları qeyd etmək olar:

| Qurumlar | İnformasiyalar |
|---|---|
| Dənizçilik İnstitutu | Burrishoole Balıq Artırma Müəssisəsinə daxil olan və ondan xaric olan suyun monitorinqi üzrə hesabat (Balıq Artırma Müəssisəsinə daxil olan və ondan xaric olan suyu ildə üç dəfə yoxlanılır və 1988-ci ildən etibarən müxtəlif kimyəvi parametlər in kütləsi ölçülür) |
| Mərkəzi Statistika İdarəsi | Davamlı İnkişaf Göstəriciləri (Müxtəlif şöbələr və təşkilatlar üzrə davamlı inkişaf barədə 55 göstəricidən ibarət ətraflı hesabat). |
| Ətraf mühitin mühafizəsi agentliyi | Hidrometeroloji ötürücülər (İrlandiya Hidrometroloji Stansiyası). |
| Kommunikasiya, Enerji, Təbii Ehtiyatlar Departamenti | Üst suların kütləvi hərəkəti |
| Təhsil Departamenti | Məktəblər (təhsil və elm idarəsi tərəfindən yardım olunan müəssisələrin statistikası) |
| Maliyyə Departamenti | Büdcə və İqtisadi Statistika, Aylıq İqtisadi Bülleten, hökumət statistikaları |

İrlandiyada Açıq Hökumət Məlumatları üçün müəyyən edilmiş formatlar **5-ulduz Açıq Məlumatlar Sxeminə** uyğun təyin olunur:

*Məlumatın istənilən şəxs tərəfindən asanlıqla əldə oluna bilən və hər kəs tərəfindən görülən olmasına diqqət yetirmək tələb olunur.

** Məlumatlar maşın tərəfindən oxuna bilən formatda olmalıdır: Məlumatlar müxtəlif formatda, bəziləri insanlar tərəfindən oxunması, dərk edilməsi və redaktə olunması asan, digərləri isə komputer əməliyyatları üçün əlverişli ola bilər. Məsələn, şəkillər və diaqramlar insanlar tərəfindən asan dərk olunandırsa, komputer emalı üçün çətindir. Eyni ilə, rəqəmlərlə dolu cədvəllər insanlar üçün çətin dərk olunandırsa, belə informasiya komputer tərəfindən asanlıqla emal olunur. Açıq Məlumatların təkrar istifadəsini təmin etmək üçün məlumatlar maşın tərəfindən oxunaqlı və strukturlaşdırılmış formatda olmalıdır.

*** Məlumatlar patentləşdirilmədən, açıq edilməlidir: Əgər məlumatlar patentləşdirilibsə, hətta maşın tərəfindən oxunan olsalar belə bu məlumatlar əl çatan deyil. Təcrübə göstərir ki, açıq hökumət məlumatları üçün ən uyğun format patentsiz formatdır (məsələn, CSV patentsiz formatdır).

**** Açıq Məlumatlar təkcə əl çatan və təkrar istifadəsi mümkün olan olmamalı, həmçinin, müxtəlif məlumat mənbələrindən qoşulması mümkün olmalıdır. Bunun üçün, birinci mərhələ obyektləri və anlayışları təyin etmək üçün URL-dən istifadədir. URL göstəricilər kimi istifadə olunmaqla yanaşı obyektə və ya anlayışa aid lazımi informasiyanı təmin etməlidir. Məlumatları açıq etmənin yerli metodu RDF kimi açıq standartlardan istifadədir.

***** Yayımlanan məlumatlara müxtəlif veb-səhifələrdə mövcud məlumat bazalarının linkləri əlavə olunmalıdır.

5-ulduz Açıq Məlumatlar Sxemi barədə sonrakı yazılarımızda ətraflı məlumat veriləcək.

Hazırda hökumət məlumatlarının açıq edilməsi dünyanın bir çox ölkələrində tətbiq olunur və çox böyük sosial əhəmiyyətə malikdir.

## Avstriyada vətəndaşlar, fiziki və hüquqi şəxslər etibarnamələri "Elektron Hökumət" portalı vasitəsilə əldə edə bilirlər

Avstriyanın "Elektron hökumət" portalı ilə, portaldakı elektron xidmətlərlə tanış olduqda görürük ki, Avstriya vətəndaşları istənilən növ etibarnamələri "Elektron Hökumət" portalındakı elektron xidmət vasitəsilə asanlıqla, heç bir yerə getmədən, heç bir quruma müraciət etmədən, rüsumu onlayn şəkildə ödəməklə əldə edə bilirlər. Rəqəmsal etibarnamə əldə etmək üçün elektron vətəndaşlıq kartı müstəsna rola malikdir. Belə ki, elektron vətəndaşlıq kartı (vəsiqəsi) vasitəsilə "rəqəmsal etibarnamə" elektron xidmətinə daxil olan vətəndaş, müvafiq etibarnaməni və həmin etibarnamə üzrə etibar ediləcək səlahiyyətləri, həmçinin, səlahiyyətlini seçir, elektron vətəndaşlıq kartı vasitəsilə etibarnaməni imzalayır. "SourcePin" Qeydiyyat Sistemi üzrə etibarnamənin tərkibi (nümunə üçün: Şirkətin adını, VÖEN və s.) yoxlanılır, etibarnamə təsdiqlənərək, səlahiyyətlinin kartına yönləndirilir. Bununla, nümayəndəyə etibar edilən səlahiyyətləri qəbul etmək hüququ verilir. Həmçinin, bu sistem etibarnamə verən şəxsə rəqəmsal etibarnamənin qüvvədə qalma müddətini müəyyən etmək və istənilən vaxt onun ləğvinə xitam vermək imkanı yaradır. Rəqəmsal etibarnamə ilə icra edilən bütün əməliyyatlara istənilən vaxt baxış keçirmək mümkündür.

Avstriyanın tətbiq etdiyi rəqəmsal etibarnamə təcrübəsinə əsasən, artıq vətəndaş üzərində müxtəlif növ kağız üzərində olan etibarnamələri gəzdirmək məcburiyyətindən azad olur. Təkcə e-vətəndaşlıq vəsiqəsindən istifadə edərək, etibarnamə ilə olan bütün onlayn, eləcə də onlayn olmayan əməliyyatları başqa şəxsin (şirkətin) adından icra edir. Bu xidmətin sosial mahiyyəti bir tərəfdən vaxta qənaət, digər tərəfdən isə hər an itə biləcək kağız üzərində olan bir sənədin təhlükəsiz şəkildə virtual istifadəsini təmin edilməsidir.

Avrstriyada tətbiq edilən rəqəmsal etibarnamələr vətəndaşlarla yanaşı, fiziki və hüquqi şəxslərin də marağına səbəb olmuşdur. Etibarnamələrin ən çox tətbiq olunduğu iş sektorları, biznes sahibləri, irili-xırdalı şirkətlər elektron etibarnamələr vasitəsilə müvafiq səlahiyyətləri siravi vətəndaşa, həmçinin, hüquqi və fiziki şəxsə virtual formada etibar edir, daha da önəmlisi, sistem vasitəsilə bu əməliyyatlara nəzarət etmək hüququna malik olurlar. Zamanın dəyərini yüksək qiymətləndirilən, hər bir sahədə kağız əməliyyatlarından imtina etməyə çalışan avropalılar "rəqəmsal etibarnamə" xidmətini yüksək qiymətləndirirlər.

## Mətbuat nümayəndələrinin və xidmət təminatçılarının nəzərinə!

"Elektron Hökumət" portalının operatoru ayda bir dəfə "Elektron Hökumət" quruculuğu, elektron xidmətlər, elektron imza, eləcə də İKT sahəsinə aid yerli və beynəlxalq xəbərləri ictimaiyyətə çatdırmaq məqsədilə "Elektron Hökumət" bülleteni dərc olunur. Bülletendə "Elektron Hökumət" portalı, tətbiq olunan yeni elektron xidmətlər, e-sənəd mübadiləsi, e-imza infrastrukturu və xarici ölkələrin "Elektron Hökumət" və İKT sahəsindəki təcrübələri barədə xəbərlər öz əksini tapır.

Nəzərinizə çatdırmaq istəyirik ki, cari ilin fevral ayından etibarən hər ayın ilk 10 günündə "Elektron Hökumət" bülleteni üzrə brifinq keçiriləcək. Məqsəd təqdim olunan yeniliklər barədə informasiyanın kütləviləşməsi, həmçinin, görülən işlərin mətbuata birbaşa elan olunmasından ibarətdir. Tədbirə mütamadi olaraq xidmət təminatçılarının nümayəndələri və



müstəqil ekspertlər də dəvət olunacaqlar.

**Brifinq Məlumat Hesablama Mərkəzində keçiriləcək.**

**Ünvan:** *Azərbaycan, Bakı, Droqal döngəsi, 702-ci məhəllə*

*Daha ətraflı məlumat almaq üçün* **press@rabita.az** *e-poçt ünvanına müraciət edə bilərsiniz.*

www.e-gov.az

## 01.01.2015 – 31.01.2015-ci il dövrü ərzində "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 130321 |
| 2 | Telefon nömrəsi üzrə axtarış | RYTN | 76627 |
| 3 | Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 65285 |
| 4 | Mobil cihazların qeydiyyatdan keçirilməsi | RYTN | 59455 |
| 5 | Mobil cihazların IMEI kodunun yoxlanılması | RYTN | 39327 |
| 6 | Rabitə və kommunal xidmət haqlarının internet vasitəsilə ödənilməsi | RYTN | 21160 |
| 7 | Sığortaolunanın onlayn uçota alınması | Dövlət Sosial Müdafiə Fondu | 18922 |
| 8 | Portal üzərindən istifadəçi qeydiyyatı | Elektron Hökumət Portalı | 17447 |
| 9 | Vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayışın verilməsi | Elektron Hökumət Portalı | 12318 |
| 10 | Sığortaolunanlara məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 11367 |
| 11 | Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 10358 |
| 12 | İş yerinə dair arayış | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 9979 |
| 13 | Məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 5045 |
| 14 | Uşağın üç yaş tamam olanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 4758 |
| 15 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 3860 |
| 16 | Portal üzərindən verilmiş arayışların yoxlanılması | Elektron Hökumət Portalı | 3839 |
| 17 | Uşağın anadan olmasına görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 3668 |
| 18 | Hamiləliyə və doğuma görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 3105 |
| 19 | Namizədlərə, sınaq imtahanı iştirakçılarına imtahan nəticələri haqqında məlumatların internet və ya qısa mesaj (SMS) vasitəsilə verilməsi | TQDK | 2936 |
| 20 | Pensiyaçıya məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 2618 |

## 01.02.2015-ci il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 78 | 154 | 232 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 31.01.2015 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 17361 | 5051 | 6939 | 29351 |

## 2015-ci ilin yanvar ayı ərzində bütün qurumlar üzrə "Elektron hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 8 | 208682 |
| 2 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 43 | 206797 |
| 3 | Dövlət Sosial Müdafiə Fondu | 13 | 64768 |
| 4 | Elektron Hökumət Portalı | 10 | 33639 |
| 5 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 14 | 3917 |
| 6 | Daxili İşlər Nazirliyi | 2 | 3140 |
| 7 | "AzərEnerji" ASC | 2 | 1431 |
| 8 | Təhsil Nazirliyi | 2 | 1065 |
| 9 | Mərkəzi Seçki Komissiyası | 7 | 1019 |
| 10 | "Azərsu" ASC | 3 | 987 |
| 11 | Əmlak Məsələləri Dövlət Komitəsi | 4 | 927 |
| 12 | Səhiyyə Nazirliyi | 10 | 698 |
| 13 | Dövlət Gömrük Komitəsi | 5 | 625 |
| 14 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 13 | 613 |
| 15 | Satınalmalar üzrə Dövlət Agentliyi | 8 | 468 |
| 16 | Milli Arxiv İdarəsi | 2 | 382 |
| 17 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 4 | 370 |
| 18 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2 | 360 |
| 19 | Dövlət Miqrasiya Xidməti | 1 | 287 |
| 20 | Ədliyyə Nazirliyi | 2 | 257 |
| 21 | Dövlət Statistika Komitəsi | 4 | 255 |
| 22 | Vergilər Nazirliyi | 7 | 216 |
| 23 | İqtisadiyyat və Sənaye Nazirliyi | 8 | 190 |
| 24 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 186 |
| 25 | Nəqliyyat Nazirliyi | 4 | 146 |
| 26 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 11 | 121 |
| 27 | Dövlət Sərhəd Xidməti | 3 | 118 |
| 28 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 109 |
| 29 | Dövlət Dəniz Administrasiyası | 18 | 106 |
| 30 | Kənd Təsərrüfatı Nazirliyi | 19 | 106 |
| 31 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 89 |
| 32 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 15 | 88 |
| 33 | "Aqroliziq" Açıq Səhmdar Cəmiyyəti | 1 | 79 |
| 34 | Gənclər və İdman Nazirliyi | 4 | 73 |
| 35 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 72 |
| 36 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 71 |
| 37 | Xarici İşlər Nazirliyi | 1 | 69 |
| 38 | Baş Prokurorluq | 1 | 60 |
| 39 | Fövqəladə Hallar Nazirliyi | 3 | 53 |
| 40 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 49 |
| 41 | Energetika Nazirliyi | 6 | 42 |
| 42 | Müəllif Hüquqları Agentliyi | 5 | 37 |
| 43 | Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 2 | 18 |
| | **CƏMİ** | **292** | **532785** |

www.e-gov.az

## "E-hökumət" portalında olan e-xidmətlərin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş siyahı ilə

# MÜQAYİSƏLİ TƏHLİLİ

*01.02.2015*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 1 | 1 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 26 | 1 | 2 | 24 | 24 |
| 3 | Ədliyyə Nazirliyi | 18 | 12 | 18 | 16 | 14 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 3 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 10 | 3 |
| 6 | İqtisadiyyat və Sənaye Nazirliyi | 7 | 7 | 8 | 11 | 5 |
| 7 | Vergilər Nazirliyi | 60 | 59 | 59 | 58 | 58 |
| 8 | Energetika Nazirliyi | 8 | 6 | 6 | 5 | 5 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 15 | 10 | 12 | 15 | 14 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 15 | 13 | 19 | 21 | 14 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 18 | 18 | 22 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 5 | 2 |
| 13 | Təhsil Nazirliyi | 8 | 2 | 2 | 12 | 5 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 29 | 31 | 31 | 31 |
| 15 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 16 | 15 | 34 | 26 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 1 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 0 | 5 | 14 | 11 |
| 23 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 9 | 9 | 13 | 10 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 27 | 25 | 31 | 31 | 24 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 6 | 0 | 0 | 1 | 1 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 21 | 11 | 12 | 21 | 21 |
| 31 | AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 6 | 6 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 14 | 14 | 14 | 14 | 14 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 11 | 10 | 10 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 4 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 4 | 4 | 5 | 5 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 37 | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 1 | 0 | 0 | 1 | 1 |
| 38 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 1 | 8 | 2 | 2 |
| 39 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 3 | 2 | 2 | 4 | 3 |
| 40 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 41 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 42 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 1 | 1 |
| | **CƏMİ:** | **452** | **329** | **391** | **463** | **399** |

| | DÖVLƏT QURUMUNUN ADI | | | |
|---|---|---|---|---|
| 1 | "Meliorasiya və su təsərrüfatı" ASC | 2 | 2 | |
| 2 | "Azərsu" ASC" | 2 | 3 | |
| 3 | Azərenerji" ASC | 2 | 3 | |
| 4 | Mərkəzi Seçki Komissiyası | 6 | 9 | |
| 5 | Baş Prokurorluq | 1 | 1 | |
| 6 | "Elektron hökumət" portalı | 2 | | |
| | **CƏMİ:** | **15** | **18** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| **YEKUN** | **452** | **329** | **406** | **481** | **399** |

# "Elektron hökumət" portalına daxil olanların sayı 1 203 760 nəfərə çatdı




Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi (MHM) "Elektron hökumət" portalına daxilolmaların növbəti statistikasını təqdim edib. Statistik uçotun aparıldığı tarixdən - 2012-ci ilin dekabrından 2015-ci ilin yanvar ayının 31-ə qədər portala daxil olanlar haqda toplanan məlumatlar göstərir ki, portala ümumilikdə 3,935,775 daxilolma qeydə alınıb.

Portala müraciət edənlərin ümumi sayı isə 1,203,760 nəfər olub. Belə ki, 1,203,760 nəfər ümumən 3,935,775 dəfə portala baxıb və 7,244,687 dəfə elektron xidmətlərə müraciət ediblər. Həmin şəxslər 15,843,050 dəfə müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 6 dəqiqə 32 saniyə olub.

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 30.7%-ni yeni istifadəçilər, 69.3%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Yanvar ayının statistikasına nəzər salsaq, bu dövrdə portala 321,000 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 98,640 nəfər olub. Həmin şəxslər 1,285,899 olmaqla, müxtəlif səhifələrə keçid ediblər, 532,785 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 57 saniyə təşkil edib. Yanvar ayı ərzində portala müraciət edənlərin 20.5%-ni yeni istifadəçilər, 79.5%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Portala daxil olmaq üçün sadələşdirilmiş kod-parol alan istifadəçilərin sayı bu gün 178,387-ə çatıb. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən vətəndaş kod-parol əldə edə bilər. Portal üzərindən təqdim edilən xidmətlərin sayı 406 olub.




© 2015 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə
Tel.: 157; Email: office@rabita.az